İş № 1-1 (103) - 33/2008

# BAKI APELLYASİYA MƏHKƏMƏSİNİN APELLYASİYA ŞİKAYƏTLƏRİNƏ BAXIŞ İCLASININ YEKUN

# Q Ə R A R I

07 oktyabr 2008-ci il                                                Bakı şəhəri

Bakı Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kolleqiyası aşağıdakı tərkibdə:

Sədrlik edən – Qasımov Faiq Adil oğlu,

Hakimlər – Mirzəyev Sahibxan oğlu və Ramazanov Camal Cumar oğlu tərkibdə,

Rzayev Sərxan Nüsrət oğlunun katibliyi ilə,

Dövlət ittihamçısı – Azərbaycan Respublikası Baş Prokurorluğunun dövlət ittihamının müdafiəsi üzrə idarənin prokuroru baş ədliyyə müşaviri Nəsirov Murad Camov oğlunun iştirakı ilə məhkəmə baxış iclasında Bakı Hərbi Məhkəməsinin 26 avqust 2008-ci il tarixli hökmündən Məmmədov Elnur Elşən oğlu tərəfindən verilmiş apellyasiya şikayətinə baxaraq

## MÜƏYYƏN ETDİ:

Bakı Hərbi Məhkəməsinin 26.08.2008-ci il tarixli hökmü ilə ( sədrlik R.Abbasov )

09 sentyabr 1989-cu ildə Rusiya Federasiyasının Moskva şəhərində anadan olmuş, Azərbaycan Respublikası vətəndaşı, subay, orta təhsilli, əvvəllər məhkum olunmamış, Gəncə şəhəri, N.Nərimanov küçəsi, ev 6, mənzil 47-də qeydiyyatda olan, «N» saylı hərbi hissədə sülhməramlı qüvvələr taborunun 3-cü bölüyünün atıcısı vəzifəsində, əsgər hərbi rütbəsində xidmət edən, barəsində "komandanlığın müşahidəsi altına vermə" qətimkan tədbiri seçilmiş

Məmmədov Elnur Elşən oğlu Azərbaycan Respublikası CM-nin 332.1-ci maddəsi ilə təqsirli bilinərək 4(dörd) ay müddətinə intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmişdir.

Məhkəmənin hökmünə əsasən Məmmədov Elnur Elşən oğlu «N» saylı hərbi hissədə əsgər hərbi rütbəsində xidmət edərkən 08 iyun 2008-ci il tarixdə saat 12:00 radələrində Azərbaycan Respublikası SQ-nin DXN-nin 38-ci maddəsində göstərilən "hərbi qulluqçular bir-biri ilə münasibətdə həmişə nəzakətli və təmkinli olmalıdırlar" tələblərinə zidd olaraq, tabelik münasibətlərində olmayan hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozaraq, həmin hərbi hissənin əsgəri Əmrahov Orxan Məzahir oğlu ilə mübahisə etmiş, mübahisə zamanı O.M.Əmrahovun üz nahiyyəsindən bir dəfə başı ilə vuraraq sağ gözaltı nahiyyənin qançırı ilə nəticələnən dərəcəsi təyin olunmayan xəsarət yetirmişdir.

Məhkum Məmmədov Elnur Elşən oğlu hökmdən apellyasiya şikayəti verərək Bakı Hərbi Məhkəməsinin 26.08.2008-ci il tarixli hökmünü cəzanın ağırlığına görə ləğv edilib yeni qərar çıxarılmasını xahiş etmişdir.

Məhkum Məmmədov Elnur Elşən oğlu xahişini şikayətdə onunla əsaslandırmışdır ki, birinci instansiya məhkəməsi onun öz əməlindən səmimi peşiman olmağını, gəncliyini, ilk dəfə böyük ictimai təhlükə törətməyən cinayət əməlini törətdiyini, zərər çəkmiş şəxsin onunla barışmasını, ondan heç bir şikayət və tələbinin olmamasını və 9 (doqquz) ay xidmət etdiyini cəza təyin edərkən nəzərə almamışdır.

Bakı Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyası cinayət işinin materiallarını araşdırıb, apellyasiya şikayətinin dəlillərini müzakirə edərək və dövlət ittihamçısının həmin şikayətin təmin edilməməsi haqda rəyini dinləyərək hesab edir ki, aşağıdakı əsaslara görə Bakı Hərbi Məhkəməsinin 26.08.2008-ci il tarixli hökmü dəyişdirilməlidir.

Belə ki, iş materiallarından göründüyü kimi Məmmədov Elnur Elşən oğlu 08 iyun 2008-ci il tarixdə gizir R.A.Lətifovun rəhbərliyi altında əsgər O.M.Əmrahov və digər əsgər yoldaşları ilə birlikdə hərbi hissənin qərargah binasının arxasında təmizlik işlərini aparmış, saat 12.00 radələrində əsgər O.M.Əmrahov ona yaxınlaşaraq siqaret istəmişdir. Siqaretin olmadığını bildirdikdə O.M.Əmrahov onun ciblərini axtarmışdır. O.M.Əmrahovun hərəkətlərindən narazı olduğu üçün mübahisəsi başlamışdır. Mübahisə zamanı onlar bir-birinin yaxasından tutmuş və E.E.Məmmədov başı ilə bir dəfə O.M.Əmrahovun üz nahiyyəsindən vuraraq xəsarət yetirmişdir. O.M.Əmrahovun burnu qanamışdır. Hadisə zamanı orada olan gizir R.A.Lətifov və əsgərlər onları aralamışlar. R.A.Lətifov hər ikisini hərbi hissənin zabiti, polkovnik-leytenant A.Zeynalovun xidməti otağına aparmışdır. Törətdiyi cinayətə görə peşmandır. Hadisədən sonra O.M.Əmrahovdan üzr istəmiş və onlar barışmışlar.

Birinci instansiya məhkəməsində E.E.Məmmədovun ona elan olunmuş ittiham üzrə təqsiri iş üzrə ibtidai istintaq zamanı toplanmış sübutlardan başqa, məhkəmə istintaqı zamanı dindirilmiş şahidlərin və təqsirləndirilən şəxslərin özlərinin ifadələri ilə təsdiq olunmuşdur və buna görə də məhkəmə kolleqiyası hesab edir ki, birinci instansiya məhkəməsi təqsirləndirilən şəxsin, zərərçəkmiş şəxsin və şahidlərin ifadələri, iş üzrə keçirilmiş ekspertizaların rəylərinə və işin faktiki hallarına əsaslanmaqla haqlı olaraq E.E.Məmmədovun təqsirinin təsdiq olunması nəticəsinə gəlmiş və əməlini düzgün tövsif etmişdir.

Eyni zamanda məhkəmə kollegiyası hesab edir ki, birinci instansiya məhkəməsi məhkum E.E.Məmmədova cəza təyin edərkən, Azərbaycan Respublikası CM-nin 41, 58 və 59-cu maddələrinin tələblərinə əməl etməklə məhkumun cəzasını ağırlaşdıran və yüngülləşdirən halları, törədilmiş cinayətin xarakterini, onun şəxsiyyətini nəzərə alsada, bir sıra cəzanı yüngülləşdirən halları nəzərə almamışdır.

Belə ki, E.E.Məmmədov cavan olaraq ilk dəfə cinayət məsuliyyətinə cəlb olunur, törədilmiş cinayəti zərərçəkmiş şəxsin qanunsuz hərəkətləri təsiri altında törətmişdir.

Məhkəmə kollegiyası bu hallara və onlarla yanaşı həm də birinci instansiya məhkəməsinin hökmdə göstərdiyi hallara (cəzanı yüngülləşdirən bütün halların məcmusuna) əsaslanaraq belə qənaətə gəlir ki, Məmmədov Elnur Elşən oğlunun cəza çəkmədən islah olunması mümkündür və onun barəsində intizam xarakterli hərbi hissədə saxlama cəzası şərti olaraq tətbiq edilməsi məqsədə müvafiq hesab olunmaqla Azərbaycan Respublikası CM-nin 41.2 maddəsində nəzərdə tutulmuş məqsədləri tam təmin edir.

Odur ki, məhkəmə kolleqiyası hesab edir ki, Bakı Hərbi Məhkəməsinin Bakı Hərbi Məhkəməsinin 26 avqust 2008-ci il tarixli hökmü dəyişdirilməli və E.E.Məmmədova təyin edilmiş 4(dörd) ay müddətinə intizam xarakterli hərbi hissədə saxlama cəzası Azərbaycan Respublikası CM-nin 70-ci maddəsinə əsasən şərti tətbiq edilməlidir.

Bakı Apellyasiya Məhkəməsinin hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyası şərh olunanları və Azərbaycan Respublikası CPM-nin 397.1, 397.2 və 398.1.4-cü maddələrini rəhbər tutaraq –

Q Ə R A R A   A L D I:

Məhkum Məmmədov Elnur Elşən oğlunun apellyasiya şikayəti təmin edilsin.

Məmmədov Elnur Elşən oğlu barəsində Bakı Hərbi Məhkəməsinin 26 avqust 2008-ci il tarixli hökmü dəyişdirilsin.

Məmmədov Elnur Elşən oğluna təyin edilmiş 4(dörd) ay müddətinə intizam xarakterli hərbi hissədə saxlama cəzası Azərbaycan Respublikası CM-nin 70-ci maddəsinə əsasən 6 ( altı) ay sınaq müddəti təyin olunmaqla şərti tətbiq edilsin.

E.E.Məmmədovun davranışı üzərində nəzarət xidmət etdiyi hərbi hissənin komandanlığına həvalə edilsin.

Qərar elan edildiyi andan qanuni qüvvəyə minir.

Qərardan Azərbaycan Respublikası Ali Məhkəməsinə kassasiya qaydasında şikayət və ya protest verilə bilər.